BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN TƏHLİLİ MƏRKƏZİ

TƏHLİL

# Böyük Britaniyada növbədənkənar parlament seçkiləri və ölkənin xarici siyasətinə mümkün nəticələri haqqında

Vasif Hüseynov

Mirzə İbrahimov 8, Bakı, AZ1005, Azərbaycan

(+994 12) 596-82-39, (+994 12) 596-82-41

E-mail: www.aircenter.az, info@aircenter.az

İYUN 2024

## Böyük Britaniyada növbədənkənar parlament seçkiləri və ölkənin xarici siyasətinə mümkün nəticələri haqqında

- May 22-də Böyük Britaniyanın Baş Naziri Rishi Sunak cari ilin iyul ayının 4-də növbədənkənar parlament seçkilərinin keçirilməsi haqqında açıqlama verdi. Qeyd edək ki, ölkə ictimaiyyətində, ekspertlər və siyasətçilər arasında, seçkilərin cari ilin payız aylarında (oktyabr və ya noyabrda) keçirilməsi gözlənilirdi.
- R.Sunakın erkən seçkilərə getməsi haqqında qərarın ölkə iqtisadiyyatında Breksitdən sonrakı təlatümlü dövrdən sonra müəyyən irəliləyişin əldə olunması ilə izah olunur. R.Sunakın mövcud pozitiv vəziyyətdən istifadə edərək erkən seçkilər ilə partiyasının səslərini artırmaq cəhdi müşahidə edilir.
- Bununla belə, 14 ildir Britaniyada hakimiyyətdə olan Mühafizəkarlar Partiyası üçün seçkilərin heç də asan keçməyəcəyi və hətta, rəy sorğularına əsasən, uduzmaq ehtimalının yüksək olduğu güman olunur. Keir Starmerin rəhbərlik etdiyi Leyboristlər Partiyası ölkə üzrə keçirilən sorğuların nəticəsinə əsasən, Mühafizəkarlar Partiyasını 20 faiz qabaqlayır.
- Beynəlxalq siyasi təcrübə sorğuların heç də seçkilərin nəticəsi ilə tamamilə üst-üstə düşmədiyini göstərsə də, Leyboristlər Partiyasının qarşıdan gələn seçkilərdə şansı yüksək qiymətləndirilir. Bununla belə, bu partiyanın hakimiyyətə gələcəyi halda, dövlətin siyasətində, xüsusilə xarici siyasətində, ciddi dəyişikliklər edəcəyi gözlənilmir.

### Seçki gündəliyi

Mühafizəkarlar Partiyası iqtisadi stabilliyi qoruyub saxlayacağı ilə bağlı vədlərlə seçkilərə getdiyi halda, Leyboristlər Partiyasının əsas sloqanı "Dəyişiklik" (Change) kimi təqdim olunub. Leyboristlər Partiyası hakimiyyətə gələcəyi təqdirdə, sosial xidmətlər, xüsusilə Milli Səhiyyə Sistemində islahatlar aparacağını və insanların rifah halını yaxşılaşdıracağını vəd edir. *Hər iki partiya immiqrasiya məsələsində sərt olacağını vəd etsə də*, Leyboristlər Partiyası R.Sunakın illeqal yollarla ölkəyə daxil olmuş qaçqınları Ruandaya köçürmək siyasətinin qeyri-praktik və xərcli olduğunu bildirir.

Digər partiyaların hakimiyyət formalaşdırmaq üçün kifayət qədər səs toplayacağı hesab olunmasa da, Leyboristlər və ya Mühafizəkarlar partiyalarının təkpartiyalı hökumət qurmaq üçün tələb olunan 650 parlamentari yerindən 326-sını əldə edə bilmədiyi halda, koalisiya hökumətinin qurulması ehtimalı yüksəkdir. Məsələn, 2017-ci ildə Theresa May belə bir addım atmağa məcbur olmuş və Şimali İrlandiyadan olan Demokratik Birlik Partiyası (Democratic Unionist Party – DUP) ilə birlikdə koalisiya hökuməti qurmuşdu. Qarşıdan gələn seçkilərdə şansı daha çox qiymətləndirilən belə partiyalar bunlardır: Liberal Demokratlar, Yaşıllar və Milli Şotland Partiyası (Scottish National Party - SNP). Qeyd edək ki, sonuncu seçkilərin nəticəsinə əsasən, 43 parlament yeri əldə etmiş SNP-nin növbəti seçkilərdə səslərini nisbətən itirəcəyi ehtimal olunur. Belə ki, partiyanın lideri Humza Yusuf cari ilin aprel ayında Şotlandiyanın birinci naziri postundan istefa etdikdən sonra, partiyanın dayaqlarının zəiflədiyi müşahidə olunur. Leyboristlər Partiyası bu fürsətdən istifadə edib Şotlandiyada səslərini artırmağı hədəfləyir.

**Leyboristlər Partiyasının xarici siyasət platforması**

Beləliklə, sorğular göstərir ki, iyulun 4-də keçiriləcək parlament seçkilərində Leyboristlər Partiyası ən pis halda koalisiya hökuməti ilə hakimiyyətə gələcək. Cari ilin aprel ayının 17-də Leyboristlər Partiyasının kölgə xarici işlər naziri (Shadow Secretary of Secretary of State for Foreign, Commonwealth and Development Affairs) olan David Lammy *Foreign Affairs* jurnalına məqaləsində Partiyanın xarici siyasət platforması haqqında məlumat vermişdi. Öncə qeyd edək ki, kölgə xarici işlər naziri postu müxalifətdə olan partiyanın yaratdığı kölgə Kabinetin tərkibində hakim partiyanın xarici siyasətini monitorinq etmək və öz partiyasının xarici siyasət agendasını hazırlamaq funksiyasını yerinə yetirir. *Əgər Keir Starmer seçkilərdən sonra başqa qərar qəbul etməsə, Leyboristlər Partiyası hakimiyyətə gələcəyi təqdirdə, ölkənin xarici işlər naziri məhz David Lammy olacaq.*

David Lammy *Foreign Affairs* jurnalında məqaləsində Britaniyanın realist xarici siyasət yeritməsinin gərəkli olduğunu bildirir. O, 1997-ci ildə Leyboristlər Partiyasının sonuncu dəfə seçkilərdə qalib gəldiyi vaxtla müqayisədə Britaniyanın dünya siyasətində çəkisinin əhəmiyyətli dərəcədə kiçildiyini bildirir. Əgər 1997-ci ildə Britaniyanın Ümumi Daxili Məhsulu (ÜDM) Çin və Hindistanın ÜDM-in toplam həcmindən çox idisə, bu gün təkcə Çin iqtisadiyyatı Britaniyanın iqtisadiyyatından 5 dəfə böyükdür.

- Britaniyanın Avropa İttifaqından (Aİ) növbəti addım haqqında heç bir planı olmadan ayrılmasını bir səhv adlandıran D.Lammy, Leyboristlər Partiyasının hakimiyyətə gələcəyi təqdirdə, Aİ-yə qayıtmaq təşəbbüsü ilə çıxış etmək planının ***olmadığını*** bildirir.
- Britaniyanın hərbi gücünün də azaldığını bildirən D. Lammy qeyd edir ki, bu gün Britaniyanın əsgərlərinin sayı Napoleon döyüşlərindən indiyə qədərki ən aşağı həddədir. O, Britaniyanın hərbi potensialını gücləndirmək üçün müvafiq addımlar atmasının dövrün tələbi olduğunu bildirir.
- O, Leyboristlər hökumətinin Rusiya ilə bağlı sərt siyasət yürüdəcəyini qeyd edir və Rusiyanı Avropa təhlükəsizliyi üçün böyük təhdid kimi qiymətləndirir.
- O, Avropanın üzləşdiyi təhlükələrə qarşı Aİ və Britaniyanın əməkdaşlığı dərinləşdirməli olduğunu bildirir və Leyborist hökumətinin Aİ ilə **"yeni geosiyasi tərəfdaşlıq"** yaratmağa çalışacağını bildirir.
- O, Ukraynanın müharibədə qalib gəlməsi və daha sonra NATO üzvlüyünün reallaşdırılması üçün Britaniyanın proseslərə öncüllük etməli olduğunu bildirir.
- David Lammy İndo-Pasifik regionunda da Britaniyanın daha aktiv və realist siyasət yürütməsinin lazım olduğunu bildirir. O, Britaniyanın AUKUS-u dəstəkləməsinin və Yaponiya və Cənubi Koreya ilə əlaqələri dərinləşdirməsinin gərəkli olduğunu bildirir.
- D. Lammy Çinlə bağlı xarici siyasətdə Mühafizəkar Partiyasının ardıcıl siyasət yürütmədiyini qeyd edərək bildirir ki, 2015-ci ildə o vaxt da xarici işlər naziri olan David Cameron Çin – Britaniya əlaqələrinin qızıl dövrdən keçdiyini bildirirdi, sonra 2022-ci ildə Liz Truss Baş nazir olanda münasibətlər düşmənlik həddinə düşdü, David Cameron nazir postuna qayıtdıqdan sonra isə qeyri-müəyyən çaşqınlıq (confused ambiguity) mərhələsinə girdi. D. Lammy Leyborist Hökumətinin Çinlə daha ardıcıl siyasət yürüdəcəyini bildirir.
- D. Lammy dünyada proteksionist ticarət siyasətinin getdikcə vüsət aldığını ABŞ-dakı İnflyasiyanın Azaldılması Aktı (Inflation Reduction Act) və Aİ-də qəbul edilən Yaşıl Razılaşmaya (Green Deal) əsasən izah edir. Belə ki, hər iki qanun aktına əsasən, dövlətin yaşıl texnologiyalar, xüsusilə də elektrik avtomobillərin istehsalına subsidiya verməsi qanuniləşdi. D. Lammy Britaniyanın oxşar addımlar atmaqdan çəkinməməli olduğunu bildirir.
- O, Leyborist hökumətinin yaşıl texnologiyaların istehsalı üçün subsidiya verməsini təşkil edən fond yarada biləcəyini qeyd edir. O, Britaniyanın iqlim

dəyişikliyinə qarşı mübarizə üçün Şimal Dənizində yeni neft və qaz quyularının axtarışı üçün lisenziyaları dayandırmasının yaxşı addım ola biləcəyini bildirir.

**Beləliklə, 4 iyul tarixindəki parlament seçkilərində Leyborist Partiyasının hakimiyyətə gələcəyi təqdirdə, Britaniya xarici siyasətində ciddi dəyişiklik gözlənilmir. Onların Rusiya və Çinlə bağlı mövcud siyasi xətti qüvvəsində saxlayacağı və Aİ ilə əlaqələri post-Breksit reallıqlarına əsasən davam etdirəcəyi gözlənilir. Daxili siyasətlə bağlı da ciddi dəyişiklik planları olmayan Leyboristlər Partiyasına xalq arasında dəstəyi artıran əsas amilin son 14 il ərzində Mühafizəkarlar Partiyasının hakimiyyətdə olduğu müddətdə ölkə iqtisadiyyatının və sosial rifahın pisləşməsi faktları göstərilir.**